# Qətnamə № A735 (18)

# Beynəlxalq Dəniz Təşkilatı haqqında Konvensiyaya Düzəlişlər

***4 noyabr 1993-cü ildə qəbul edilmişdir.***

Məclis

17-ci iclasda bir sıra nümayəndələrin 1992—1993-cü il dövrü üçün seçkilərin nəticələrindən narahat olduqlarını ifadə etdiklərinə əsaslanaraq,

Şuranın 66-cı iclasında Şuraya seçkilərə dair müddəalara mümkün düzəlişlərin nəzərdən keçirilməsi məqsədi ilə, Təşkilatın bütün üzvləri üçün açıq olan İşçi Qrup yaratdığını qeyd edərək,

BDT Konvensiyasının müddəalarının yenidən baxılması zərurətinin xoş məramla Təşkilatın daxilində başladığını və bütün üzvlərin ümumi razılığı əsasında qəbul edildiyini məmnunluqla qeyd edərək,

İşçi Qrup tərəfindən tövsiyyə olunmuş və Şuranın 69-cu iclasında bəyənilmiş Şuraya seçkilərə dair düzəlişlərə baxaraq,

1. Mətnləri bu Qətnaməyə Əlavədə əks olunmuş BDT Konvensiyanın 16, 17 və 19-cu maddələrinə düzəlişlər qəbul edir.

2. BDT Konvensiyasının 67-ci maddəsinə uyğun olaraq, Təşkilatın Baş katibindən BMT Baş katibi ilə birlikdə qəbul edilmiş düzəlişlərin saxlanılmasını xahiş edir.

3. Təşkilatın üzvlərini mümkün qədər tez bir zamanda bu düzəlişləri qəbul etməyə və BDT Konvensiyasının 68-ci maddəsinə uyğun olaraq, düzəlişlərin qəbul edilməsi haqqında müvafiq sənədlərin BDT Baş katibinə göndərməyə dəvət edir.

---

# Əlavə

# Beynəlxalq Dəniz Təşkilatı haqqında Konvensiyaya düzəlişlər

## *VI fəsil. Şura*

### *Maddə 16*

16-cı maddənin mətni aşağıdakı ilə əvəz olunsun:

*«Şura Məclis tərəfindən seçilən 40 üzvdən ibarət olmalıdır».*

Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## *Maddə 17*

17-ci maddənin mətni aşağıdakı ilə əvəz olunsun:

*«Məclis Şuranın üzvlərini seçərkən aşağıdakı kriteriyalara riayət etməlidir:*

*a) On üzv beynəlxalq dəniz gəmiçiliyi xidmətlərinin göstərilməsində daha maraqlı olan dövlətlər olmalıdır;*

*b) On üzv beynəlxalq dəniz ticarətində daha maraqlı olan digər dövlətlər olmalıdır;*

*c) İyirmi üzv dəniz nəqliyyatı və naviqasiyasında xüsusi maraqları olan və Şuraya seçilməsi dünyanın bütün əsas coğrafi sahələrinin təmsilçiliyini təmin edə biləcək, yuxarıdakı (a) və (b) bəndlərinin şərtləri ilə seçilməyən dövlətlər olmalıdır.»*

## *Maddə 19(b)*

19-cu maddənin (b) bəndinin mətni aşağıdakı ilə əvəz olunsun:

*«(b) Şuranın iyirmi altı üzvü kvorum təşkil edir.»*

---

© *VneshExpertService*

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional